

# PUL HAQQINDA MARAQLI FAKTLAR

ÇOXLARI PULA OLAN MÜNASİBƏTLƏRİNİ MÜƏYYƏN EDƏ BİLMİR. BƏZİLƏRİ ONLARI SEVİR, BƏZİLƏRİ NİFRƏT EDİR, BƏZİLƏRİ İSƏ QICIQLANIR. LAKİN HEÇ BİR MÜNASİBƏTƏ BAXMAYARAQ, PUL – İNSANIN MƏQSƏDİNƏ ÇATMASI ÜÇÜN ƏVƏZOLUNMAZ VASİTƏDİR. BU FAKTI ÇOXLARI BİLİR, LAKİN, ÇOX AZ ADAM TAPILAR Kİ, İNSANIN İXTİRA ETDİYİ BU “MÖCÜZƏ” HAQDA AŞAĞIDA SADALANAN FAKTLARI BİLSİN.

◊ Çox az adam kağız banknotun müxtəlif mikroorqanizmlərin daşıyıcısı olduğunu bilir. Bu bakteriyalar bəzi çox ciddi xəstəliklərə səbəb ola bilər. Bəzi dövlətlərdə, turistlərə bu yolla xəstəliklərə yoluxmamaq üçün əllərini tez-tez dezinfeksiya etməyi məsləhət görürlər. Avropa Birliyi bu mikroblarla mübarizədə fəal iştirak edir. Misal üçün, avronun üzərinə xüsusi antibakterial tərkibli maddə səpilir. Yaponiya isə öz növbəsində kağız pulları sterilizə edən xüsusi ATM-lərdən (bankomatlardan) istifadə edir.

◊ Ən ağır sikkə İsveç qəpiyidir. O, XVIII əsrdə istifadəyə verilib. Düzbucaqlı şəklindədir və rekord çəkiyə malikdir - 19 kq və 710 qr.

◊ Amerikalılar üçün ən uğursuz əskinas Prezident Tomas Jeffersonun təsvir edildiyi 2 dollardır. Dollar o qədər qeyri-populyar idi ki, hətta maaş aldıqda belə 2 dolları qəbul etmirdilər və ya dərhal xirdalamağa çalışırdılar. Nəticədə, 1976-ci ildə 2 dolların dövriyyəyə çıxarılması dayandırıldı.







İnsan vaxtının çox hissəsini pullar haqqında düşünür. Bəziləri onu hətta sevgidən də üstün tutur. Lakin, bunu təhlil edən şəxs dərhal o nəticəyə gəlir ki, pul ilə çox şey almaq olar, hər şey yox.

◊ Makedoniyalı İsgəndər ödəniş sikkələrində öz profilinin əbədiləşdirilməsini sifariş edən ilk şəxs olub.

◊ Dünyada tapılmış ən böyük Qızıl külçə 1872-ci ildə kəşf edilib, onun çəkisi 630 kq-dır. Külçəni onu tapan insanın şərəfinə "Holterman" adlandırmışdılar.

◊ Dünyanın ən bahalı qızıl sikkəsinin nominal dəyəri bir milyon dollardır. Bu sikkə, Kanadada 999,99 əyarlı qızıldan hazırlanıb və çəkisi 100 kq-dır.

◊ Bir milyon ABŞ dolları 100 dollarlıq əskinaslarından yığılmış halda 10 kq; 100 milyon ədəd 1 sentlik sikkələr isə yığılmış halda 246 ton ağırlığındadır.

◊ Ən unikal, qeyri-adi gecə geyimi 100 dollarlıq əskinaslardan hazırlanmışdır. Geyimin ümumi dəyəri yüz min dollar təşkil edir. Bu geyim xüsusi olaraq İngiltərədə keçirilən milli lotoreya oyunlarının reklamı üçün hazırlanmışdır.

◊ İrlandiyada, divar və tavanlarına ümumi dəyəri 500 mindən çox dollar yapışdırılan bir unikal pivə evi var. Bu, ənənə bir ofisiantın öz cibindəki pulu divara yapışdırdıqdan sonra başladı.

◊ Ən gəlirli barter əməliyyatı 1626-ci ildə Peter Minot tərəfindən edilmişdir. O, 24 dollar dəyərində muncuğu Manhettendə yerləşən adaya dəyişib (barter edib). Həmin ada sonradan, 1993-cü ildə, fantastik bir məbləğə, 50,4 milyard dollara qiymətləndirilib.

◊ Çində evlənmək istəyən gənc kişi və qadınlar əskinasların üzərinə özləri haqqında qısa





məlumat və tələblərini yazırlar. Belə tanışlıq üçün nəzərdə tutulan elanlar ölkə içində hərəkət edir və tez-tez gənclər məqsədinə çatırlar. Və sonralar bu əskinas ailəvi miras hesab olunur.

◊ ABŞ-da həyatda olan şəxslərin şəkillərini kağız əskinasının üzərində həkk olunması qanunla qadağandır. Yeganə istisna sikkənin üzərində təsvir olunan Kelvin Kulidjdir.

◊ Qəpiklərin kənarlarının digir-digir olmasının çox maraqlı səbəbi var. Əvvəllər bütün pulların dəyəri tərkibində olan qızıl və ya gümüşün çəkisinə bərabər idi. Fırıldaqçılar bundan istifadə edib qəpiklərin kənarlarını kəsərək onun dəyərini azaldır, kəsikləri əridib satırdılar.



◊ Qəpiyin müqabilində ödənilən ən rekord məbləğ 314 min dollardır. Sürixdə keçirilən hərracda Afrikanın qədim gümüş qəpiyinə (dekadraxma) ödənilən məbləğdir.

◊ 1949-cu ildə, Frank X. Maknamar dostları ilə şam yeməyinə gedir. Lakin onun restoranla hesablaşmaq üçün kifayət qədər pulu yox idi. Bu vəziyyət Franka çox pis təsir edir və bu kimi hadisələrin təkrarlanmaması üçün universal bir kredit kartı ideyasını reallaşdırır. Beləliklə, Dinners Club kredit kartı yarandı.

◊ İlk ABŞ prezidenti Corc Vaşinqtonun həyat yoldaşı Marta Vaşinqton ABŞ valyutasının (1 dollarlıq gümüş sikkə) üzərində təsvir edilmiş yeganə qadındır. Yeri gəlmişkən Corcun rəsmi isə 1 dollarlıq kağız əskinasının üzərində təsvir edilib.




◊ ABŞ dollarının istehsalı üçün istifadə olunan kağızın tərkibinə 75% pambıq və 25% kətan daxildir. Əskinas 4 000 dəfə qatlanmağa tab gətirməlidir.

◊ İri buynuzlu heyvanlar yəqin ki, ən qədim pul növü olmuşdur. Yaxın dövrlərə qədər (XX-ci əsrin ortaları) Afrikanın bəzi ərazilərində pul vasitəsi kimi istifadə olunub.

◊ ABŞ-da, 1865-ci ildə saxta pullara qarşı mübarizə aparmaq üçün gizli xidmət təsis edilib. Çünki, dövriyyədə olan bütün pulların üçdə birinin saxta olduğu təxmin edilir.

◊ Dünya əhalisinin üçdə bir hissəsi gününə 2 dollardan az, 1.2 milyard insan isə 1 dollardan az. xərcləyir.

◊ İlk kağız pul Çində meydana gəlib. Buna səbəb bir zəngin çinli üçün üzərində qəpikləri daşımagın ağır olması idi. İlk kağız pullar tut ağacının qabığından hazırlanıb.

◊ Amerikanın elit barlarında ən məşhur kokteyl "Rockfeeller"dir. Bu yaşıl rəngli kokteyli mütləq silindr şəklinə salınmış yüz dollar ilə içmək lazımdır. Maraqlıdır ki, məhz bu kokteyl üçün dollarlar ultrabənövşəyi işıq ilə sterilizə edilir.

◊ Təsəvvür edin: ən adi sikkələr hətta indi də Londonun ən məşhur saatı olan Big Ben-i idarə edir. Saat neçə saniyə irəli gedirsə, onun kəfgirinin altına bir o qədər 1 pensoluq qəpik qoymaqla saatı öz vaxtına çəkmək olar. Çünki qəpiyin çəkisi vaxtı bir saniyə azaldır.



## PUL HAQQINDA SƏHV İNANCLAR

◊ Böyük pullar yalnız ağır işlə məşğul olduqda qazanılır.
Bu bəyanatı başınıza yerləşdirməyin. Əslində, böyük pulları əldə etmək asandır, təki məqsədin məhz pul qazanmaq ola.

◊ Pul həyatda əsas şey deyil.
Bu bəyanat doğru deyil. Pulun böyük dəyəri var. Siz sevdikləriniz insanları və ya özünüzü pulun köməyi ilə xoşbəxt edə bilərsiniz. Pul həyatda hər şeydən əsasdır. Bu da doğru bəyanət deyil!

◊ Pul insanı korlayır.
Yanlış fikirdir. İnsanın pula olan münasibəti, hansı məqsədə istifadə etməsindən asılıdır. Bütün milyoner və milyarderlər - ağıllı və özünə kifayət qədər güvənən insanlardır. Necə ki varlı, eləcə də kasıb insanların arasında pis niyyətli, qeyri-səmimi insanlara rast gəlmək olar.

◊ Pulun varsa, "qara gün" üçün saxla.
Niyə belə? Əksinə, bu pulu investisiyaya qoy və daha çox pul əldə et. Belə olsa "qara gün" heç vaxt gəlməyəcək.

◊ Təmiz, vicdanlı işlə pul qazanmaq mümkün deyil.
Yanlış fikirdir. Əslində, bu böyük dövlət qazanmaq üçün doğru bir yoldur. Faydalı iş, həmişə onun qurucusuna



## QƏRİBƏ PUL İNANCLARI

1.Hər bir millətin öz milli əskinası ilə bağlı müəyyən yaxşı və pis inancları var:

- Ruslar üçün uğurlu sikkə - beş qəpikdir;
- Amerikalılar üçün - ilk qazanılmış dollar;
- Almanlar ciblərində və ya pul kisəsində bir əyilmiş sikkə saxlamağın uğur gətirəcəyinə inanırlar;
- Kanadalıların ən xoşbəxt əskinası "şeytan başları" hesab edilir. Diqqətlə baxsaq əskinasın üzərində olan şahzadənin saç yığımında şeytanın üzünü görmək olar. Ancaq belə əskinaslar çox azdır, çünki bank dərhal dövriyyəyə yeni əskinaslar buraxdı və bu dəfə saç düzümündə heç bir qüsur yox idi.
- Çinlilər üçün qırmızı lent ilə bağlanmış üç yuan xoşbəxtlik əskinasıdır.
- Yaponlar heç vaxt tapdıqları itirilmiş pul kisəsini özlərinə götürməzlər, onların inancına görə bu uğursuzluq gətirər. Tapıntını polis bölməsinə təslim edərlər.

2. Təmizkar ol, onda varlanarsan.
Belə qeyri-adi inanc qədim Misirdə yaranıb. O zamanda insanlar inanırdılar ki, təmizliyə riayət etməsən ugursuzluq səni təqib edəcək və çoxlu pul itirəcəksən. Bu qayda "ali" insanlar sayılan fironlara aid deyildi.

3. Nal.
Biz bilirik ki, at murad rəmzidir. Atın nalı isə uğur, ruzi-bərəkət gətirir. Əsas da təsadüfən tapılan nal, ancaq indiki dövrdə bu çöx çətin tapıntı olar.



4. Qəpiklərin fəvvarəyə və ya quyuya atılması xoşbəxtlik gətirər.
Bəs bu nə qədər düzgündür? Məgər 3, 5 və ya 10 qəpiyin dəyəri yoxdurmu? Bu səbəbi olmayan inancdır.



5. Pullar hesab xoşlayırlar. Həmişə pulunun sayını bil: maqazində, bankda və ya evdə.

6. Əgər istəyirsinizsə həmişə pulunuz olsun, bu qaydalara riayət edin:

- Evdə fit çalmaq olmaz;
- Pul kisəsində olan qəpikləri saymaq olmaz;
- Axşam çağı borc pul və duz vermək olmaz;
- Pulu stolun üstünə qoymayın;
- Stolun üstündə olan çörək qırıntılarını əl ilə yığmaq olmaz;
- Gecə pulu saymaq olmaz;
- Müxtəlif nominallı pulları eyni yerdə saxlamaq olmaz;
- Pul kisəsini boş saxlamaq olmaz və s.;

İnsan vaxtının çox hissəsini pul haqqında düşünür. Bəziləri onu hətta sevgidən də üstün tutur. Münaqişələrin baş vermə səbəbləri arasında pul amili ön yerdədir. Bunları təhlil edən şəxs dərhal o nəticəyə gəlir ki, pul ilə çox şey əldə etmək olar, amma hər şeyi yox. Pul ilə ölçülməyən sağlamlıq, valideyn, övlad məhəbbəti, dostluq, və s... Siz bu siyahıya daha nəyi əlavə edə bilərdiniz?

***Aidə Bağırova***